# Rayonun sosial iqtisadi inkişafı haqqında məlumat

**(Əvvəli qəzetimizin 4 iyun tarixli nömrəsində)**

***Kənd təsərrüfatı***

Rayonda keçən ilin payızında 20190 hektar sahədə payızlıq taxıl əkilmişdir.

Mart ayının üçüncü ongünlüyündə yazlıq bitkilər əkininə başlanmış və qısa müddətdə aprel ayının 1-i vəziyyətinə 120 hektar kartof, 110 hektar tərəvəz, 309 hektar çoxillik ot, 115 hektar şəkər çuğunduru, 3 hektar qarğıdalı,133 hektar birillik ot və 595 hektar dənli paxlalılar və yaşıl yem əkilmişdir. Başqa sözlə desək 1385 hektar yazlıq bitkilər əkilmişdir ki, bu da keçən ilin həmin dövrünə nisbətən 44.3 faiz çoxdur.

İlin birinci rübündə keçən ilin həmin dövrünə nisbətən iri buynuzlu mal- qaranın sayı 263 baş, inək və camışların sayı 55 baş, qoyun və keçilərin sayı 1025 baş, donuzların sayı 302 baş azalmışdır.

Keçən ilin həmin dövrünə nisbətən ət istehsalı 0,3 faiz, süd istehsalı 0,9 faiz azalmış, yumurta istehsalı isə artmışdır.

***Sənaye***

Qəbələ rayonunun sənaye müəssisələri tərəfindən 12825.0 min manatlıq və ya əvvəlki ilin müvafiq dövründən 27,8 faiz çox məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. Ümumi məhsul istehsalında və xidmətlərin göstərilməsində qeyri - dövlət bölməsinin xüsusi çəkisi 81,8 faiz təşkil etmişdir.

Rayonda 9233.6 min manatlıq qida məhsulları, 421.0 min manatlıq mədənçıxarma sənayesi və 840.3 min manatlıq tikinti materialları istehsal edilmişdir. İlin ötən dövrü ərzində 10494.9 min manatlıq məhsul istehsal olunmuş və 2330.1 min manatlıq sənaye xarakterli xidmətlər göstərilmişdir. Sənaye müəssisələrində çalışan 1474 nəfərin orta aylıq nominal əmək haqqı 471.1 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 23,6 faiz çox deməkdir.

***Tikinti***

2019-cui ilin aprel ayının 1-vəziyyətinə rayonda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 8437.0 min manat, (6739,0 min manatı dövlət mülkiyyəti, 1698.0 min manatı isə qeyri dövlət mülkiyyəti) tikinti quraşdırma işlərinin həcmi isə 8256,0 min manat ( 6597.0 min manatı dövlət mülkiyyəti, 1659.0 min manatı qeyri dövlət mülkiyyəti ) təşkil etmişdir.

Eləcə də ümumi sahəsi 1836 kv metr olan 17 fərdi ev tikilib istifadəyə verilmişdir. İl ərzində 7011.5 min manatlıq əsas fondlar istifadəyə verilmiş bununda 6224.2 min manatı dövlət, 787.3 min manatı isə qeyri-dövlət mülkiyyəti təşkil etmişdir.

***Mədəniyyət və turizm***

Aprel ayının 1-i vəziyyətinə 1 mədəniyyət evi, 26 kitabxana, 1 xalq teatrı, 31 klub, 4 mədəniyyət və istirahət parkı, 3 muzey fəaliyyət göstərmişdir. Rayonda 93 mədəniyyət abidəsi və 1 dövlət qoruğu vardır. Abidələrin 61-i dövlət əhəmiyyətlidir.

**Təhsil**

Rayonda 4 ibtidai, 11-əsas və 53 orta məktəb fəaliyyət göstərir.

Hazırda ümumtəhsil məktəblərdə 16150 nəfər şagird təhsil alır, 2600 müəllim bu şagirdlərin təlim tərbiyyəsi ilə məşğul olur. Məktəblərdə 485 kompyuterdən istifadə olunur.

Qəbələ rayonunda 22 məktəbəqədər uşaq müəssisəsi vardır ki, bunlarda da uşaqların sayı 780 nəfərdir.

Dövlət peşə təhsili mərkəzində408 nəfər gənc 8 ixtisas üzrə təhsil alır. Bu gənclərin təlim tərbiyyəsi ilə 15 nəfər müəllim və 13 nəfər usta məşğul olur.

***Səhiyyə***

Qəbələ rayonunda ümumən 330 çarpayılıq 6 xəstəxana, 36 tibb və feldşer-mama məntəqəsi, 9 ambulator poliklinika müəssisəsi-- cəmi 51 tibb ocağı fəaliyyət göstərir.

Bu müəssisələrində 178 həkim, 461 orta tibb işçisi çalışır. Rayonda əhalinin hər 10000 nəfərinə 18,8 həkim, 48,6 nəfər tibb işçisi düşür.

***Nəqliyyat və rabitə***

İlin birinci rübündə avtomobil nəqliyyatı ilə 354 min ton, əvvəlki illə müqayisədə 40 min ton və ya 12,7 faiz çox yük daşınmışdır. Rayonda həmin dövrdə 1986 min sərnişin daşınmış, bu da keçən illə müqayisədə 1.4 faiz və ya 28 min sərnişin çox deməkdir.

Rabitə müəssisəsi tərəfindən isə 300 min manatlıq rabitə xidməti göstərilmişdir.

***İstehlak bazarı***

2019-cu ilin birinci rübü ərzində rayonun istehlak bazarında əhaliyə 9670 min manatlıq pullu xidmət göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 45950 min manat olmuş bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 10,0 faiz və ya 4201 min manat çox olmuşdur.

Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində iaşə dövriyyəsinin xüsusi çəkisi 8,6 faiz və ya 3955 min manat təşkil etmişdir.

***Əmək haqqı və məşğulluq***

İlin ötən dövrü ərzində rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 288.2 manat təşkil etmiş və 2018-ci ilin həmin dövrünə nisbətən 6,9 faiz artmışdır.

Rayon əmək və məşğulluq mərkəzində 1 aprel tarixə 606 nəfər işsiz vətəndaş qeydiyyata alınmış, 313 nəfəri müxtəlif peşələr üzrə işə düzəldilmişdir.

Hazırda məşğul əhalinin sayı 51310 nəfərdir. Onların 13787 nəfəri muzdla işləyənlərdir.

Məşğul əhalinin 73,1 faizi və ya 37523 nəfəri muzdsuz işləyənlərdir. Muzdsuz işləyənlərin 31519 nəfəri və yaxud 84,0 faizi kəndli təsərrüfatlarda, 4,6 faizi yaxud 1726 nəfəri fiziki şəxslər, yerdə qalan 4278 nəfəri və ya 11,4 faizi isə digər sahələrdə çalışanlardır.

2003-cü ilin oktyabr ayından 2019-cu il aprel ayının 1-nə dək rayonda 18935 yeni iş yeri açılmışdır ki, onun da 17136 daimi iş yerləridir.

**Ayaz İSGƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**

# Biçin kampaniyası uğurla aparılır

Bu il biçin kampaniyasında Qəbələ rayonunda 20 min 190 hektar taxıl sahəsinin məhsulunun biçilməsi



nəzərdə tutulur. Taxıl əkinlərinin 15 min 790 hektarını buğda, 4 min 400 hektarını arpa sahələri təşkil edir. Bu günədək 4 min 200 hektar sahənin arpası biçilib, 13 min 440 ton məhsul istehsal olunub. Hər hektardan orta məhsuldarlıq 32 sentner təşkil edir.

Eləcə də 4 min hektardan artıq sahədə buğda biçinini aparılıb. Buğda zəmilərindən götürülən orta məhsuldarlıq 33 sentnerdir. İndiyədək sahələrdən 13 min 200 ton buğda istehsal olunub.

Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə hazırda sahələrdə 62 taxılbiçən kombayn işləyir.

Fermerlərimiz ötən ilki mövsümdə 20 min 100 hektar taxıl sahəsindən 64 min 464 ton məhsul tədarük ediblər. Hər hektardan orta hesabla 32,2 sentner məhsul götürülüb.

**"Qəbələ"**

# Uğurlar arzulayırıq

Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2019-cu il tarixli Sərəncamı ilə Qəbələ Rayon İcra Hakimiyyətinin informasiya təminatı və təhlil sektorunun müdiri Kərimov Zahir Zahid oğlu "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur. Ölkə Prezidenti tərəfindən əməyinə və ictimai fəaliyyətinə verilən yüksək qiymətə görə Zahir Kərimovu təbrik edir, ona gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

**"Qəbələ" qəzeti redaksiyasının kollektivi.**

# Barama tədarükü davam edir

Respublikada ipəkçiliyin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər rayon baramaçılarının bu sahəyə marağını xeyli artırıb.



Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən müxbirimizə verilən məlumat görə Qəbələli kümçülər indiyədək qəbul məntəqəsinə 15 ton 348 kiloqram yaş barama təhvil veriblər.

Hazırda rayonda barama tədarükü davam edir.

**"Qəbələ"**

# Əllərin var olsun



Sənətini sevənlər hər vaxt el arasında xətir-hörmətli olurlar. Bir də ki, bu cür sənətkarların həmişə müştərisi olur. Səfa Bağırov məhz belə sənətkarlardandır. Səfanı mən on ildən çoxdur ki, tanıyıram və onun gözəl sənətkar olduğuna bələdəm. Səfa hər şeydən əvvəl sadə, gülərüz, təvəzökar, şirindil bir insandır.

Səfa Bağırov 1968-ci ildə Qəbələ şəhərində zəhmətkeş bir ailədə dünyaya gəlib. Şəhər 2 nömrəli tam orta məktəbi bitirdikdən sonra 141 nömrəli Qəbələ Peşə Məktəbinə daxil olub. Uzaq Şərqdə hərbi xidmətdə olub, orada da bu sənətə yiyələnib. Hazırda şəhərimizdəki məişət avadanlıqlarının təmiri emalatxanasında təmir ustası kimi çalışan Səfa 13 ildir ki, əhaliyə can-başla xidmət edir. Müştərilər onun təmir etdiyi soyuducu, paltaryuyan, tozsoran və sair məişət avadanlıqlarını arxayın işlədirlər..

Sağ ol, ay Səfa. Əllərin var olsun.

**Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin üzvü,**
**"Qəbələ"-nin müxbir postunun rəhbəri.**

# VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ

**İkitərəfli SMS xidməti haqqında**

**Hörmətli vergi ödəyicisi!**

Məlum olduğu kimi, "Vergi ödəyicilərindən daxil olmuş standart SMS-lərin avtomatik olaraq SMS vasitəsilə cavablandırılması mexanizminin yaradılması" nəzərdə tutulmuş və qeyd edilən xidmət hazırlanaraq 2012-ci ildə istifadəyə verilmişdir.

Həmin xidmət 07.11.2018-ci il tarixdən texniki tapşırığa uyğun olaraq yenilənmişdir .

Belə ki, yenilənmədən əvvəl mobil nömrəni "İkitərəfli SMS xidməti" üzrə qeydiyyatdan keçirmək və abunə olmaq yalnız mobil telefon vasitəsi ilə müvafiq sorğu göndərməklə həyata keçirilirdisə, **12.03.2019-cu il tarixdən etibarən İnternet Vergi İdarəsinin Onlayn kargüzarlıq bölməsində yeni yaradılmış "İkitərəfli SMS xidməti" altbölməsindən istifadə etməklə də qeydiyyatdan keçmək və abunə olmaq mümkündür.**

Hazırda "İkitərəfli SMS xidməti"ndən qeydiyyatdan keçmiş vergi ödəyiciləri 8195 nömrəsinə

- 1 yazıb göndərməklə dövlət büdcəsinə olan vergi borcu barədə;
- 2 yazıb göndərməklə təqdim edilməli bəyannamələr barədə;
- 3 yazıb göndərməklə fəaliyyətin aktiv və ya dayandırılmış olması barədə;
- 4 yazıb göndərməklə e-qutuda oxunmamış məktubların olub-olmaması barədə;
- 5 yazıb göndərməklə qeydiyyatda olan təsərrüfat subyektləri barədə məlumat ala bilərlər.

**"İkitərəfli SMS xidməti" üzrə qeydiyyatdan keçmiş vergi ödəyiciləri xidmətə abunə olduqda isə onlar avtomatik olaraq vergi öhdəlikləri və vergi orqanının qanuni tələbləri barədə aşağıdakı 21 halda SMS vasitəsilə məlumatlandırılırlar:**

**-Büdcəyə ödəniş etdikdə;**
**-Yeni borc yarandıqda;**
**-Təqdim edilmiş bəyannamə üzrə vergi hesablandıqda;**
**-Bəyannamə üzrə uyğunsuzluq yarandıqda;**
**-Təqdim edilməli bəyannamələr olduqda;**
**-Fəaliyyət dayandıqda;**
**-Fəaliyyət aktivləşdikdə;**
**-Cari vergi ödəmələri barədə arayış təqdim etdikdə;**
**-Cari vergi ödəmələri hesablandıqda;**
**-Ləğv bəyannamələri göndərildikdə;**
**-Növbəti səyyar vergi yoxlaması təyin edildikdə;**
**-Əlavə vergi məbləği hesablandıqda;**
**-İnternet Vergi İdarəsində olan elektron kabinetə sənəd daxil olduqda;**
**-Maliyyə sanksiyası tətbiq edildikdə;**
**-Təsərrüfat subyekti qeydiyyata alındıqda;**
**-Təsərrüfat subyekti qeydiyyatdan çıxarıldıqda;**
**-Təqdim edilən bəyannamədə göstərilən fəaliyyət növü ilə bazada olan fəaliyyət növləri arasında uyğunsuzluq olduqda;**
**-ƏDV qeydiyyatına alındıqda;**
**-NKA qeydiyyata alındıqda;**
**-NKA qeydiyyatdan çıxarıldıqda;**
**-Şəhadətnamə-dublikatın alınması barədə ərizə göndərildikdə.**

Maliyyə itkiləri ilə üzləşməməsi və vergi qanunvericiliyinə könüllü əməletmənin yüksəldilməsi məqsədilə "İkitərəfli SMS xidməti"nə qoşulmağınız Sizə tövsiyə olunur.

**10 saylı Ərazi Vergilər İdarəsi.**